# Səhnəqrafiyanın "genetik kodu" haqqında

Səhnəqrafiya tamaşanın tərtibatı və onun səhnə zamanı və məkanda mövcud olan plastik - təsvir surətinin yaranması ilə məşğul olan bədii yaradıcılıq növüdür. Tamaşada səhnəqrafiya sənətinə aktyoru əhatə edən (dekorasiya), onun işinə aid olan - oyun, hərəkət edir (məişət əşyavi, atributlar) və onun bədənində olan (qrim, maska, onun zahiri görünüşünü dəyişən başqa elementlər) hər şey aiddir. Bununla yanaşı ifadə vasitələri kimi aşağıdakılar da istifadə edilə bilər: 1) təbiətin yaratdığı hər bir şey; 2) məişət ya istehsalat əşyaları və faktları; 3) rəssamın yaradıcılıq fəaliyyətin nəticəsində əmələ gələn ünsürlər (maska, kostyum və əşyavi rekvizitlərdən tutmuş boyakarlıq, qrafika, səhnə boşluğu, işıq, dinamika və s. kimi).

Səhnəqrafiya öz başlanğıcını mərasim - ayin tamaşa hərəkətlərinin həm qədim, tarixəqədərki, həm də günlərimizə qədər qalıq şəklində gəlib çatmış folklor səhnəqrafiyasından götürüb.

Artıq bu erkən səhnəqrafiyada "genetik kod" özünü göstərməyə başlamışdır. Həmin "genetik kod" ki, onun sonrakı reallaşdırılması səhnəqrafiya sənətinin antik dövrdən bizim günlərimizədək olan tarixi inkişafının əsas mərhələlərini müəyyən etdi. Bu genetik kodda səhnəqrafiyanın tamaşada oynaya biləcək bütün 3 baş funksiyası əks olunmuşdur: personaj, oyun və məkanı müəyyən edən funksiyalar. Personaj funksiyası səhnəqrafiyanı səhnə hərəkatına müstəqil mahiyyətli maddi-əşyavi, plastik, təsviri və yaxud hansısa bir başqa (təcəssüm vasitələrinə əsaslanaraq) personaj olan ifaçının eyni hüquqlu partnyoru, çox vaxt isə baş iştirakçı kimi daxil olmağa imkan verir. Oynun funksiyası səhnəqrafiyanın və onun ayrı-ayrı elementlərinin (kostyum, qrim, maska, əşyavi aksessuarlar) aktyor görünüşünün və onun oyununun dəyişməsində ifadə olunur. Məkanın müəyyən olunması funksiyası tamaşa hadisəsinin baş verdiyi mühitin təşkil olunması ilə bağlıdır.

Erkən səhnəqrafiyanın yaranmasında personaj funksiyası üstünlük təşkil edirdi. Mərasim-ayin tamaşaların mərkəzində səcdəgahın və yaxud hansısa ali qüvvənin surətini özündə əks etdirən obyekt yerləşirdi: müxtəlif fiqurlar (o cümlədən antik heykəllər də) müxtəlif büt, totem, müqəvvalar (karnaval və s.), müxtəlif təsvir növləri (qədim mağaralarda olan divar rəsmlər daxil olaraq), ağaclar və başqa bitkilər (müasir yeni il yolkasına qədər) surətini təcəssüm etdirən tonqallar və odun başqa növləri.

Eyni zamanda erkən səhnəqrafiya 2 başqa funksiyanı da icra edirdi: tamaşa məkanının təşkili və oyun funksiyalarını. Mərasim çıxışlarının və tamaşalarının icra olunduğu yer 3 növlü idi. Birincisi (ümumiləşmiş hərəkət yeri) mənzum əsatir şüurundan doğan və özündə kainatın semantik mənasını daşıyan (kvadrat - Yerin, dairə - Günəşin nişanı; kosmosun şaquli modelinin müxtəlif variantları; dünya ağacı, dağ, rünk, nərdivan, ayin gəmisi, qayıq; nəhayət, kainatın memarlıq surəti kimi çıxış edən məbəd) ən qədim növüdür.

İkinci tip (vaqe olan hadisənin konkret yeri) insanı əhatə edən onun həyat mühitidir: təbiət, istehsalat, məişət: meşə, çəmənlik, dağ, təpə, yol, küçə, kənd həyəti, evin özü və onun otaqları. Və üçüncü tip (səhnədən qabaqkı) - iki əvvəlki tipin mahiyyətini təşkil edirdi: səhnəni, tamaşaçılardan ayrılan və oyun yerinə çevrilən hər bir məkan təşkil edə bilərdi.

Antik dövrdən başlamış teatr bədii yaradıcılığın müstəqil növü kimi formalaşmağa başlayır və məhz bu dövrdən onun tamaşalarını tərtib edən ilk tarixi sistem kimi oyun səhnəqrafiyası meydana gəlir. Bununla yanaşı teatr tamaşalarının qədim formalarında, xüsusən antik və Şərq (mərasim-ayin erkən teatrına daha yaxın olan) bir tərəfdən səhnəqrafiya personajları, digər tərəfdən kainat nümunələrini təcəssüm edən ümumiləşdirilmiş oyun məkanları (məs. qədim yunan faciələrində orxestr və proskenium) əhəmiyyətli yer tutmağa davam edirdilər. Oyun səhnəqrafiyasının payının artması mənzum-əsatir teatrının kübar teatrına tarixi keçid dövründə baş verirdi. Bu hərəkətin ən gərgin vaxtı İntibah dövründə meydana gələn del-arte komediyalarının və Şekspir teatrının formalaşma dövrünə düşür. Məhz bura-

da aktyorların səhnəqrafiya elementləri ilə oyun-hadisə-manipulyasiyasına əsaslanan tamaşaların tərtibat sistemi özünün kulminasiya nöqtəsinə çatdı. Bundan sonra bir neçə əsr ərzində (XX əsr daxil olmaqla) tərtibat tam başqa sistem olan dekorasiya ilə əvəz olundu ki, bunun da əsas funksiyasını hərəkətin məkan surətinin meydana gəlməsi təşkil etdi.

Dekorasiya (termin latın sözü decorate - bəzəmək sözündən əmələ gəlib, onun fransız analoqu - decor, ispan - decorado, alman - Buhnenbild, ingilis -set) müasir teatrda tamaşaların tərtibat növlərindən birini təşkil edir. Tarixən dekorasiya sənəti İntibah dövründə İtaliya saray teatrında formalaşıb, lakin onun elementləri, qeyd etdiyimiz kimi, hələ Qədim Yunanıstanın antik faciəsində mövcud idi. İntibah dövrünə qədər mistreriya tamaşalarının meydan dekorasiyaları istifadə olunurdu. Onlar xristian mifologiyasının baş süjetinin kanonik hadisə yerlərini (cənnət, Nazaret, məbəd, Yelusalim, saray, zindan, dəniz, məşhur, Cəhənnəm) yaradırdılar. Bir xətt üzərində düzülən (şaquli və ya dairə boyu) bu hadisə yerləri tamaşaçılara hər şeyi birdən göstərirdilər. XVI əsrin İtaliya saray tamaşalarında faciə, komediya və pastoralın tipik hadisə yerlərini təsvir etmək üçün "dekorasiya perspektivləri"ndən də istifadə olunurdu. Onlar səhnənin dərinliyində yerləşdirilirdi və aktyorlar üçün rəngarəng fon rolunu oynayırdılar. Bu dekorasiyalar statik idi. Hadisə yerlərinin dəyişmə ehtiyacı duyulduqda əvvəl tellariylərdən (3, bəzən 5 hədli prizmalar) istifadə etməyə başladılar. Bu konstruksiyalar hələ antik teatrda məlum idi. Telarilərin köməkliyi ilə 3, 5 və daha çox müxtəlif dekorasiya şəkilləri göstərməyə imkan yaranırdı. Sonralar hadisə yerlərini çoxqat səviyyədə artırmağa şərait yaradan kulis mexanizmləri icad olundu. Növbəti addım tağşəkilli kulis dekorasiyaların meydana gəlməsi idi. O, səhnə qutucuğu boşluğunda rəssamın təsvir etdiyi təbiət landşaftının memarlıq mənzərəsinin ya interyerinin dərinlik təsvirlərini yaratmağa imkan verirdi. XVIII əsrin sonundan başlayaraq interyer mühitini canlandırmaq üçün pavilyon dekorasiyasının istifadəsinə başlanıldı. Burada kətan çərçivələrin üzərində kəsilmiş qapı və pəncərə yerləri və tavanla tamamlanmış 3 divar əks olunmuşdur. XIX əsrin romantik teatrında həcmli-mənzərəli dekorasiya tipi formalaşdı. O, rəsm edilmiş və üçölçülü elementlərdən yığılırdı və beləliklə səhnədə yaradılan hadisə yerinin şəklini daha real görünməsinə köməklik edirdi. Nəhayət, XX əsrdə yeni texnikanın meydana gəlməsi ilə əlaqədar olaraq virtual dekorasiyaların təsvirinə imkan yarandı. Bu dekorasiyalar proyeksiya, sonralar isə lazer vasitəsilə əmələ gəlirdi. Digər tərəfdən, səhnəqrafiya ustaları səhnə məkanının maksimal reallıq hissəsini yaratmaq məqsədi ilə həqiqi əşyalardan (mebel, əmək alətləri, müxtəlif məişət aksessuarları və s.) və təbii fakturalardan (ağac, torpaq, qum, su, dəmir və s.) istifadə edirlər.

Dekorasiyanın hansı üsulla yaradılmasına baxmayaraq, o həmişə xəyalı surət kimi qalmaqdadır. Bu xəyaliliyi dəf etmək cəhtləri həmişə dekorasiyadan ümumiyyətlə imtina etməyə gətirirdi və tamaşa quruluşlarını ya əhatə olunan real mühitində, ya da teatr oyunu üçün dizayn vasitəsi ilə uyğunlaşmış səhnənin boş sahəsində qurmağa sövq edirdilər. Belə hadisə yerlərinin dekorasiyadan çox-çox əvvəllər məlum olduğuna baxmayaraq, onlar müasir ustalarının böyük marağına səbəb olur. Bununla belə, dekorasiya hal-hazırda da teatra zəruri bir ifadə vasitə olaraq qalmaqdadır və rəssama mürəkkəb yaradıcı məsələlərini həll etməyə imkan yaradır. Eyni zamanda dekorasiya, pyes qəhrəmanlarının real məkan surətini açaraq, ya fantaziya, təsəvvür və gözəllik dünyasına qərq edərək tamaşaçıda xoş təəssürat oyadır və teatr əsərini daha baxımlı və maraqlı edir.

*Sevda SADIXBƏYOVA*

<u>Ədəbiyyat</u>


1. Словарь "Эстетика", М.1989.
2. М.С.Коган "О декоративном-прикладном искусстве некоторые вопросы теории.", Л.1961.
3. А.Г.Габричевский "Морфология искусства", М.2002.